M. MUŞFIQ

АРХИВ

# KƏNTL

# Və ilan



AZƏRNƏŞR
TƏDRIS-PEDAQOƵI ŞƟ'BƏSI
Bakь — 1935

894,3-93
M 87

1935 / 511

M. MYŞFIQ

894.362-93 / M94

# KƏNTLI VƏ ILAN

(EL NAƢЬLЬ)

ORTA JAŞLЬ COÇUQLAR YCYN

17372

AZƏRNƏŞR
TƏDRIS-PEDAƢOƵI ŞƏ'BƏSI
Bakь—1935

07428

Redaqtoru: **A. Şaiq**
Texredaqtoru: **M. Zejnalzadə**
Rəsmlərini və qaвьqьnь
rəssam: **M. Şirinov** cəkmişdir

Istehsalata verilmiş 11/IX-35.
Capa verilmiş 1/X-35.
Cap listi 1. Kaqьz formatь 82×110 1/32.
Bır cap listində getmiş hyrufat 31540
Baş Mətвuat Mydirligi Myvəkkilligi № 4255.
Azərnəşr № 3?0.
Sifariş № 790. Tiraж 5000.

Azərnəşr mətвəəsində вasьldь. 26-lar adьna „Kitaв Sarajь".
Bakь, Əli Bajramov kycəsi.

Qaranlьq ərtylərin
Icində dərin-dərin
Ujujan jorqun geçə,
Xoruzlar ətyşyncə,



Diksinərək ojandь.
Jandь dan jeri, jandь.
Jьldьzlar aqdь kecdi;
Həsrətlə baqdь kecdi.
Kirəmidləri bajquş,
Qanadьndan qojulmuş,

Damxalar yzə cьqdь,
Jollar gyndyzə cьqdь.
Aƣaçlar sərin-sərin,
Əsən xəfif jellərin,
Ditrədi nəfəsilə.
Quşlarьn nəƣməsilə,
Ətirlədi hər jeri,
Səbahьn cicəkləri.



Kəntdə uçaldь səslər;
Qalqdь alcaldь səslər.
Həjat bir qanat caldь,
Kəndi səs-səmir aldь.
Qalqdь coban ajaƣa;
Syryny jajdь daƣa;
Caldь bir inçə bəstə.
Kəntlilər dəstə-dəstə,



Kəntdən uzaqlaşdьlar;
Əkinə jaqlaşdьlar.
Fəqət əkin; nə əkin...
Hamьnьn ruhunda kin...
Oraq kecməjir işə,
Hamь dyşmyş təşvişə.
«Bu il açlьq olaçaq,
Gyl janaqlar solaçaq»



Dejə, səhbət edirlər;
Tez-tez fikrə gedirlər.
Synbyllər qarьş-qarьş...
Hər nəzərdə jalvarьş...
«Allaha pənah» dejə
Baqьrlar saƣьr gəjə,

Ordan bir səs gəlməjir;
Ruhlarь jyksəlməjir.
Hamь kədərli, həzin...
Syrynyb dizin-dizin,
Jolurlar synbylləri;
Qabarlanmьş əlləri.
Getdikçə, gəjdən gynəş,
Jaƣdьrьr jerə atəş.
Hamь qan-tər icində,
Dərin dərdlər icində.

***



Bojda-buxunda uça,
Colpan adlь bir qoça;
Buraqdь tarlasьnь;
Gələçəjin jasьnь,
Qəlbində duja-duja,
Başьnda qara xulja,
— Bir az dinçəlsin—dejə
Endi sərin dərəjə.



Əvət! gɵzəldir dərə,
Gɵzəldir bu mənzərə.
Gɵzəldir caƣlajaraq,
Qьvrьlьb aqan ьrmaq.
Gɵzəldir bu cicəklər
Bəzəkli kəpənəklər.
Gɵzlədir bu ɵtən quş—
Bir cicəjə vurulmuş.
Gɵzəldir jerdə otlar,
Gɵg yzyndə bulutlar,



Gɵzəldir daƣ, daş, urman,
Gɵzəldir əvət, hər jan.
Fəqət Colpan ƣəmlidir,
Baqьşь şəbnəmlidir.
Bu gɵzəlliklər onu,
Onun sьnьq ruhunu,
Aca bilməjir fəqət.
Onun bu il təbiət,
Kəntli qəlbini sьqmьş;
Əməji boşa cьqmьş.

Colpan bir az dinçəldi;
Jenə tarlaja gəldi.
Syrynyb dizin-dizin,
Calьşdь həzin-həzin.
Nə gərdy birdən, aman!..
Qarşьsьnda bir ilan...
Bir az geri cəkildi.
Baqьşlarь dikildi,
Hejran-hejran ilana;
Adam vuran ilana.

***

Ilan onu gəryncə,
Qьvrьldь inçə-inçə.



Colpan vurmaq istədi;
Yrəgində «joq!» dedi.
Vaz kecdi açьqьndan,
Sonra daqarçьqьndan,
Aldь bir parca cərək,
Əsərək ditrəjərək,
Atdь ilana sarь.
Ilan da ona sarь,



Atdь bəjyk bir qьzьl.
Colpanьn parьl-parьl
Jandь solqun gəzləri;
Jaşla dolqun gəzləri,
Ojnadь səvinçindən.
Taxьllarьn icindən,
Parlajьb ьşьl-ьşьl,
Syrynyb xьşьl-xьşьl,
Qajьtdь, getdi ilan;
Gər nələr etdi ilan...

***



Artьq gynəş yfyqdə,
Sarь, solqun boşluqda
Gylyrdy lalə kibi;—
Qьzьl pijalə kibi.
Bulutlar dəlik-dəlik
Qurubda bir pənbəlik...

Ytyq, coq dyşynçəli—
Xilqətin gizli əli
Jerə jajьr kөlgələr.
Dumanlanьr əlkələr...
Sakitdir şəffaf sular,
Gymyş kibi saf sular.
Dutularaq kədərə,
Dalqьnlaşьr daq, dərə.
Bu aqşam Colpan ançaq,
Yfyqlərə dalaraq
Gəzy, gənly səvinçək,
Evə dənyr gylərək.

***

Sabah adəti yzrə,
Şəfəq altun tyllərə
Byrynyb gylən zaman;
Ajaqa qalqdь Colpan.
Jenə getdi bicinə;
Əkinlərin icinə
Girərək həzin-həzin,
Syrynyb dizin-dizin,
Jolurdu synbylləri.
Qabarlanmьş əlləri...
Gynəş qьzьnça jenə,
Colpanьn gəzlərinə,
Həman ilan gəryndy
Javaş-javaş syryndy.
Ilan Colpana sarь.
Colpan da ona sarь.
Qorqa-qorqa əsərək,
Atdь bir parca cərək.
Ilan qьvrьldь birdən,
Colpana atdь həmən,



Bir parca sarь qьzьl
Colpanьn parьl-parьl.
Jandь gəzləri jandь;
Xəjalь işьqlandь.
Parlajьb ьşьl-ьşьl
Syrynyb xьşьl-xьşьl,
Qajьtdь getdi ilan.
Gər nələr etdi ilan...

***



Ha belə bir necə gyn,
Sirrini dyşyndyjyn,
Ilan ilə Colpanьn,
Colpan ilə ilanьn,
Sevdasь dəvam etdi;
Bunu hər kəs eşitdi.

Bir gyn Colpanь artьq
Işdən qojdu xastalьq.
Xastalьqь aqыrdь;
Өz oqlunu caqыrdь
Dedi:—«Mehriban oqlum!
Səzymə baqan oqlum!
Sabah sən get əkinə.
O ilan gəlsə jenə,
Saqьn toqunma, cynky
Evimizə bu gynky



Şənliji verən odur;
Bizi gyldyrən odur.
Gəlsə cərək verərsən;
Gylər yz gestərərsən.»
Sabahь bilsəjdiniz,
Onun oqlu Eldəniz
Neçə gəldi bicinə
Saj joqdur sevinçinə
Sonra cьqdь daqlara
Baqdь şən ьrmaqlara



Ətrafь sejrə daldь
Bir myddət orda qaldь
Jerlər, gəjlər acьqdь
Ilan juvadan cьqdь
O qьzmьş, qavrьlьrdь
Jazьq oqlanь vurdu
***
Gyn kecdi aqşam oldu
Hər şejin rəngi soldu



Hər tərəf kəlgələndi
Qaranlьq əndi-əndi
Eldəniz harda qaldь
Hanki dijarda qaldь
Xəstə atasь Colpan
Jyrəjində həjəçan

Baqdь uzun jollara
Qərib məhzur jollara
Qaranlьq əndi-əndi
Atasь şybhələndi...
Aj doqdu, cicək-ciçək
Jьldьzlar, ditrəşərək
Geçəjə çan verdilər;
Bir həjəçan verdilər.

***

Qoça Colpan, bir necə,
Kəntlilə getdi tezçə,
Əkinlərinə sarь
Gəjyn işьlqanlarь,
Ətrafь parlatьrdь.
Onun qəlbi atьrdь.
Eldənizdən xəbər joq,
Izindən bir əsər joq...

***

Bu geçə qoça Colpan,
Ruhunda çahan-çahan
Ajrьlьq sitəmləri
Bir çyr acdь səhəri.
Erkəndən həzin-həzin,
Dərdilə Eldənizin,
Sinəsi qalqdь endi.
Gəzdi bir necə kəndi.
Eldənizdən xəbər joq
Izindən bir əsər joq

***

Daqь başьnda bir coban
«Jazьq zavallь Colpan



Gərsə yrəji catlar»
Dijərək, cəkdi bir çar.
Kəntlilər dəstə-dəstə
Dьrmandь qaja ystə.
Gəldi tələşlь Colpan,
Gəzləri jaşlь Colpan.
Başladь fərjadьna;
Sarьldь evladьna.

***



Işini bilən ilan
Cьqmadь juvasьndan.
Colpanьn qəlbi jandь,
Bir oçaq kibi jandь.
Dedi!—«Ilan-ilandьr,
Insanlьqa dyşmandьr.
Aqь bir, qarasь bir...
Hamьsьnьn jarasь bir».

Sonra bir sabah erkən,
Bu dəhşətdən gejnəjən,
Kəntlilər dəstə-dəstə,
Cьqdьlar qaja ystə.
Yrəglərində təlaş
Əllərində jaraq, daş...



Qьvrьlaraq bu ilan
Cьqarkən juvasьndan,
Tez ystyny aldьlar.
Başьna daş saldьlar.
Doƣradьlar, əzdilər,
Tək gerə bilməzdilər,
Əlbətdəki bu işi.
Baƣьrdь Colpan kişi:
—«Qajanь jьqmalьjьz
Aƣ gynə cьqmalьjьz.

***



Carpьşьb həftələrçə
Qajanь parca-parca
Doƣradьlar, təkdylər.
Jerli dibli səkdylər;
Yzə cьqdь xəzinə.
Kəntlilərin gezynə,
Jeni bir işьq gəldi.
Şadlьq səsi jykšəldi;
Səvindilər gyldylər,
Xəzinəni bəldylər.

***



Coq zaman Eldənizin
Dərdilə həzin-həzin
Janьb inildədilər.
Nifrət olsun-dedilər:

17372
1095

Zəhərli ilanlara,
Xalqь aldatanlara.
Çoşdular, ditrədilər
Nifrət olsun—dedilər—
Joqsullarь aldatan,
Θmrynə zəhər qatan
Şahlara, sultanlara;
Devlətli ilanlara!



AZƏRB. MƏRKƏZI
DEVLƏT KYTYBXANASЬ
INV.

1935
511